AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

28 aprel 2017-ci il № 29-32 (9123) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### FAYDALI GÖRÜŞLƏR
### GƏMİÇİLİYİN RƏHBƏRLİYİ UKRAYNADA İŞGÜZAR SƏFƏRDƏ OLUB



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC beynəlxalq əlaqələrini genişləndirir.*

Səh. 2

### XEYİRXAHLIQ ZƏRİFƏ XANIMIN HƏYAT TƏRZİ İDİ



*Aprelin 28-də Azərbaycan tibb elmində parlaq iz qoymuş görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasından 94 il ötür.*

Səh. 3

### "ŞƏRQ-QƏRB" VƏ "ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZLƏRİ POLŞA ÜÇÜN DƏ MARAQ KƏSB EDİR



*Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Polşaya rəsmi səfəri çərçivəsində bu ölkənin dəniz və daxili su hövzələri nəqliyyatı naziri Marek Qrabarçık və infrastruktur və tikinti naziri Andjey Adamçık ilə görüşüb.*

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə hər iki ölkənin limanları və tikinti üzrə qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi yolları müzakirə olunub.

Səh. 4

### "BALAKƏN" GƏMİ-BƏRƏSİ TEZLİKLƏ AÇIQ DƏNİZƏ QAYTARILACAQ



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Balakən" gəmi-bərəsi "Bibiheybət" Gəmi Təmiri Zavodunda təmirə dayanıb. Hazırda tərsanədə olan gəmi-bərənin təmir işləri "Zığ" Gəmi Təmiri Zavodunun mütəxəssisləri ilə birgə aparılır.*

Səh. 5

### AZƏRBAYCAN NEFTİ İLƏ DOLU İLK TANKERİN SUPSA TERMİNALINDAN DÜNYA BAZARINA GÖNDƏRİLMƏSİNDƏN 18 İL ÖTÜR



*İndiyədək Supsa terminalından 592,35 milyon barrel Azərbaycan nefti 796 tankerə yüklənərək dünya bazarına yola salınıb.*

Səh. 6

### KARATEÇİMİZ FƏXRİ KÜRSÜNÜN ƏN YÜKSƏK PİLLƏSİNƏ QALXIB



*"Qəbələ" idman klubunun karateçisi Rafael Ağayev növbəti uğurunu qazanıb.*

Dəfələrlə dünya və Avropa çempionu olan idmançımız bu dəfə Mərakeşin paytaxtı Rabatda fərqlənib.

Səh. 8

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN İŞTİRAKÇILARINA BİRDƏFƏLİK MADDİ YARDIMIN VERİLMƏSİ İLƏ BAĞLI SƏRƏNCAM İMZALANIB

***Aprelin 24-də Azərbaycan Prezidenti İlham Əliyev 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bununla əlaqədar, Azərbaycan Respublikasının 2017-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 7,2 milyon manat ayrılıb.



## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA: "BİZ SON İLLƏR ARTIQ AZƏRBAYCANIN STANDARTLARINI YARATMIŞIQ"



***Ölkəmiz və paytaxtımız IV İslam Həmrəyliyi Oyunlarının qəbuluna və ən yüksək səviyyədə keçirilməsinə tam hazırdır. Təşkilat Komitəsi Oyunların hazırlığına çox ciddi yanaşıb, artıq böyük iş görülüb.***

Bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclasında söyləyib.

Mehriban Əliyeva deyib: "Biz "dünya standartlarına uyğun" kəlməsindən tez-tez istifadə edirik. Mənə elə gəlir ki, biz son illər artıq Azərbaycanın standartlarını yaratmışıq".

"Biz çalışırıq ki, hər bir tədbiri hərtərəfli hazırlayaq. Bu sahədə bizim artıq böyük təcrübəmiz var", - deyən Birinci vitse-prezident qeyd edib ki, ölkəmizdə bir çox sahələri əhatə edən beynəlxalq tədbirlər keçirilir. Gələcəkdə də belə tədbirlərin keçirilməsi üçün bir çox müraciətlər var. Yəni, artıq beynəlxalq aləmdə Azərbaycanın bu sahədə imici formalaşıb. Bizə müraciət edən beynəlxalq qurumlar əmindirlər ki, Bakıda, Azərbaycanda keçirilən böyük beynəlxalq tədbirlər doğrudan da bütün tələblərə - həm təhlükəsizlik tələblərinə, həm də təşkilati tələblərə cavab verəcək. Bu, ilk növbədə, Azərbaycan dövlətinin potensialının və Azərbaycan xalqının qabiliyyətinin göstəricisidir.

## GƏMİÇİLİYİN STENDİ ZİYARƏTÇİLƏRİN XÜSUSİ MARAĞINA SƏBƏB OLUB










***Aprelin 26-dan 28-nə kimi Bakı Ekspo Mərkəzində XVI Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika "TransCaspian/Translogistica" 2017 sərgisi keçirilir. Dənizçilik sənayesi, dəmiryol sektoru, aviasiya, kommersiya təyinatlı nəqliyyat və nəqliyyat-loqistika xidmətləri sahəsində əsas dövlət strukturları ilə yanaşı, kommersiya təşkilatlarını da bir araya toplayan "TransCaspian/Translogistica" sərgisi Xəzəryanı regionun aparıcı nəqliyyat tədbiridir.***

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və TRASEKA tərəfindən dəstəklənən sərginin hər il keçirilməsi ölkəmizin nəqliyyat qovşağı kimi mühüm rolunu vurğulayır.

Bu il "TransCaspian/Translogistica" sərgisində dünyanın 14 ölkəsini - Azərbaycan, Avstriya, Belarus, Böyük Britaniya, Gürcüstan, Litva, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən 88 şirkət iştirak edir. Yeni şirkətlər sərgi iştirakçılarının 30 faizini təşkil edirlər. Bu il sərgidə debüt edən şirkətlər arasında "PTK", "ASFIL" şirkətlər qrupuna daxil olan müəssisələr, Minsk Vaqon Təmiri Zavodu və digərləri var.

"TransCaspian/Translogistica 2017" sərgisi kommersiya şirkətləri ilə yanaşı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası, "Azərbaycan Dəmir Yolları" QSC, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Ukrzaliznytsa" Ukrayna Dəmir Yolları şirkəti, "Həştərxan Dəniz Limanı" QSC və digər bu kimi dövlət nəqliyyat strukturlarını bir araya toplayıb.

Sərgidə nəqliyyat sahəsi üzrə məhsul və xidmətlərin geniş çeşidi təqdim olunur. "Yükdaşımaları və Loqistika" sektorunda yük sahiblərinə yüklərin dəmiryol və dəniz vasitəsi ilə daşınması üçün optimal variantlar təklif olunur. "Dənizçilik sənayesi" sektoru çərçivəsində çoxfunksiyalı qəza-xilasetmə gəmiləri, qayıq və çoxtəyinatlı sürət katerlərinin modelləri, eləcə də dəniz və çay gəmilərinin layihələndirilməsi, modernləşdirilməsi və yenidən təchiz olunması, habelə konversiya üzrə mühəndislik təminatı, ponton, yanalma körpüsü və yaxta limanlarının istifadəyə hazır şəkildə tikintisi təklif edilir. Bu sektorda Türkiyə Gəmiqayırma Şirkətləri Assosiasiyası da iştirak edir.

"TransCaspian/Translogistica" sərgisi ilə eyni platformada oxşar sektor üzrə daha iki sərgi: VII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic 2017" və IV Xəzər Beynəlxalq Kater və Yaxtalar "CIBS 2017" sərgiləri keçirilir.

*(Ardı 2-ci səhifədə)*

# GƏMİÇİLİYİN STENDİ ZİYARƏTÇİLƏRİN XÜSUSİ MARAĞINA SƏBƏB OLUB

(Əvvəli 1-ci səhifədə)

Sərginin açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nəqliyyat sektoruna göstərdiyi diqqət nəticəsində dəmir yolu, su və hava nəqliyyatı vasitələri ilə yükdaşımaların həcmi artıb. Şərq və Qərb arasında körpü rolunu oynayan Azərbaycan mühüm tranzit daşımalarda əsas tərəfdaş kimi qəbul edilir. Hazırda Xəzərin sahilində ən böyük liman Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və onun tərkibində Azad Ticarət Zonası yaradılır ki, bu da ölkəmizə investisiya qoyulması üçün geniş şərait yaradır.

Daha sonra sərgidə təmsil olunan şirkətlərin stendlərinə baxan nazir "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin göz oxşayan stendi ilə də yaxından tanış olub.

"AXDG" QSC-nin sədri Rauf Vəliyev bildirib ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsinə layiqli töhfə vermək üçün bütün imkanlarını səfərbər edib.










"TransCaspian/Translogistica 2017" sərgisində stendimizi ziyarət edənlərə Gəmiçiliyin fəaliyyəti barədə ətraflı məlumat verilir. Eyni zamanda, xüsusi monitorlar vasitəsi ilə videoçarxlar nümayiş olunur. Bu səbəbdən Gəmiçiliyin stendi həm yerli, həm də xarici ziyarətçilərin xüsusi marağına səbəb olub.

XVI Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisi həm Azərbaycanın, həm də bütövlükdə region ölkələrinin dövlət nəqliyyat strukturlarının rəhbər və mütəxəssisləri ilə görüşlər, eləcə də ən son nəqliyyat texnologiyalarının nümayişi, perspektivli infrastruktur layihələri ilə yaxından tanışlıq, yeni müştərilərlə əlaqələr və təcrübə mübadiləsi baxımından unikal imkana malikdir.

# FAYDALI GÖRÜŞLƏR

## GƏMİÇİLİYİN RƏHBƏRLİYİ UKRAYNADA İŞGÜZAR SƏFƏRDƏ OLUB










***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC beynəlxalq əlaqələrini genişləndirir. Gəmiçiliyin rəhbərliyinin Ukraynaya işgüzar səfərində bu istiqamətdə bir neçə görüş keçirilib.***

"AXDG" QSC-nin sədri Rauf Vəliyevin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcə Odessa şəhərindəki "Çernomorsk" Dəniz Ticarət Limanında olub. Limanın direktoru Sergey Krıjanovskiy bərə-kompleksinin fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, 221 hektar ərazidə yerləşən liman gün ərzində 1960 vaqon, 7 minə yaxın iri və kiçik həcmli avtomobilləri qəbul etmək imkanına malikdir. Yükaşırma müəssisəsindəki 27 körpüdən 24-ü yük, 3-ü isə köməkçi körpüdür. Bunula belə, liman bütün növ yükləri qəbul etmək iqtidarındadır. Sergey Krıjanovskiy azərbaycanlı dənizçilərlə əməkdaşlığa böyük önəm verildiyini və bu əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına əminliyini ifadə edib.

Gəmiçiliyin rəhbəri Rauf Vəliyev ölkə başçısı İlham Əliyevin sərəncamı ilə yaradılan "AXDG" QSC haqqında Sergey Krıjanovskiyə məlumat verərkən bildirib ki, 2 donanmanın birləşdirilməsi əsasında təşkil olunan Gəmiçilik unikallığı ilə də fərqlənir. Rauf Vəliyev qeyd edib ki, Gəmiçilik donanmasının müasir gəmilərlə yenilənməsinə xüsusi diqqət yetirir. Ölkədə həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə əlaqədar Xəzər dənizi üzərindən artması gözlənilən yükdaşıma həcmlərinin qarşılanması üçün yaxınlarda daha dörd gəminin-vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan yeni nəsil iki Ro-Pax/Bərə və iki tankerin tikintisi üzrə sifariş verilib.

Hazırda Qara və Aralıq dənizlərində Azərbaycan bayrağı altında 10 gəminin üzdüyünü bildirən Gəmiçiliyin rəhbəri bu rəqəmin artırılması üzərində iş getdiyini də əlavə edib. Azərbaycanın tranzit imkanları barədə danışarkən Rauf Vəliyev qeyd edib ki, ölkəmiz Ukrayna ilə tranzit sahəsində də əməkdaşlıq edir və əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar var.

Görüşdə Azərbaycanın tranzit potensialından istifadə etməklə Ukraynanın İran və Mərkəzi Asiya bazarlarına çıxmaq imkanlarına toxunulub, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin Ukrayna üçün əhəmiyyəti, bu sahədə vahid tarif siyasətinin tətbiqinin vacibliyi vurğulanıb. Bu barədə iki dost dövlət arasında ən yüksək səviyyədə danışıqlar olub. Limanın və bərə kompleksinin imkanlarına yüksək qiymət verən Rauf Vəliyev birgə uğurlu əməkdaşlığa ümüdvar olduğunu bildirib.

Gəmiçiliyin nümayəndə heyəti Odessaya səfəri zamanı bir neçə bərə operatorunun nümayəndəsi ilə də görüşüb. Görüşlərdə yükdaşımalar üzrə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

# GƏMİÇİLİYİN RƏHBƏR HEYƏTİ ÜÇÜN TƏLİM KEÇİRİLİB






***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər heyəti üçün "Davranış əsaslı mədəniyyət" mövzusunda təlim keçirilib. Məqsəd işçilərin qəza zamanı davranış səviyyəsinin yüksəldilməsindən ibarətdir.***

Bildirilib ki, iş yerində təhlükəsizlik mühitinin qorunub-saxlanılması "Davranış əsaslı mədəniyyət"in əsas elementlərindən biridir. Bununla bağlı beynəlxalq tələblərə dənizçilər ciddi əməl etməlidirlər. Çünki, "Davranış əsaslı mədəniyyət"ə düzgün riayət olunması insan səhhətinə zərərin qarşısının alınmasında mühüm rol oynayır.

Dinləyicilər təlim zamanı qəzanın əsl səbəbini müəyyənləşdirmək üçün dəlillərin təhlili, qəza barədə məlumat verilməsi, onun araşdırılması və sonrakı prosedurlara, müvafiq təlimatlara riayət olunması prosesini dərindən öyrəniblər. Təlim iştirakçılarına uzun illər mövcud olan bir çox təhlükəsizlik qaydaları ilə yanaşı, yeni üsullar da ətraflı izah edilib.

Beynəlxalq təcrübəyə malik kapitan Titos Giannakakisin interaktiv formada keçirdiyi məşğələlər 2 gün davam edib.

Xatırladaq ki, Gəmiçilik əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılmasında maraqlıdır. Bu növ təlimlər gələcəkdə də təşkil olunacaq.

# BAKIDA TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN BEYNƏLXALQ ASSOSİASİYASININ İŞÇİ QRUPUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLİB



***Bakıda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Beynəlxalq Assosiasiyasının işçi qrupunun növbəti iclası keçirilib. Azərbaycan, Gürcüstan, Qazaxıstan , Ukrayna və Polşa Dəmir Yollarının, Bakı, Aktau və Batumi limanlarının əlaqədar şəxslərinin iştirak etdiyi toplantıya "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nümayəndələri də qatılıb.***

İclasda Çin-Avropa istiqamətində hərəkət edən konteynerlərə Transxəzər dəhlizi üzrə rəqabətqabiliyyətli tariflərin müəyyənləşdirilməsi bir daha nəzərdən keçirilib. Bununla yanaşı, Qazaxıstan kömürünün Ukrayna istiqamətində daşınma imkanları müzakirə olunaraq rəqabətqabiliyyətli tarif şərtləri müəyyən edilib. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Beynəlxalq Assosiasiyasının illik daşımalar barədə hesabat formaları ətrafında da fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevralında Gəmiçiliyin iştirakı ilə yaradılıb. 2016-cı ilin oktyabrında ona hüquqi status verilərək Beynəlxalq Assosiasiya formatına gətirilib. Assosiasiyanın fəaliyyəti Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna tranzit yüklərinin cəlb edilməsinə, marşrut üzrə inteqrasiya edilmiş logistik məhsulların inkişafına istiqamətlənib.




# XƏZƏRİN DELİMİTASİYASININ TƏŞƏBBÜSKARI AZƏRBAYCAN OLUB

***Azərbaycan Xəzəryanı ölkələrlə səmərəli əməkdaşlığın tərəfdarı olub. Xəzər dənizinin delimitasiyası məsələsində Azərbaycan təşəbbüskar olub, beynəlxalq hüquq çərçivəsində bu məsələnin həllinə töhfələr verib.***

Bunu Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov aprelin 25-də Bakıda keçirilən II SOCAR Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: ticarət, logistika, neft emalı, neft-kimya" forumunda deyib.

V.Ələsgərov diqqətə çatdırıb ki, artıq Azərbaycan, Rusiya və Qazaxıstan arasında Xəzər dənizinin dibinin bölüşdürülməsi məsələsi həllini tapıb. Milli Məclis sədrinin müavini digər Xəzəryanı ölkələrin də bu sazişlərə qoşulacağına ümidvar olduğunu bildirib. O deyib: "Azərbaycan Xəzəryanı ölkələr üçün nümunə olaraq Xəzər dənizindən hasil olunan neft və qazı dünya bazarlarına çıxara bilib. Hazırda TANAP və TAP layihəsi istiqamətində müvafiq tədbirlər görülür. Əminəm ki, 2018-ci ilin sonu, ən gec 2019-cu ilin əvvəlində Azərbaycan qazı dünya bazarına çıxarılacaq".

# XEYİRXAHLIQ ZƏRİFƏ XANIMIN HƏYAT TƏRZİ İDİ

## *Bu gün görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü tamam olur*




***Aprelin 28-də Azərbaycan tibb elmində parlaq iz qoymuş görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasından 94 il ötür.***

Azərbaycanın səhiyyəsinə böyük töhfələr vermiş bu insanı xatırlayanda hər bir azərbaycanlının gözü önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan, əziz xatirəsi milyonlarla insanın qəlbində yaşayan, insanların gözlərinə nur verən görkəmli elm fədaisinin - Zərifə xanım Əliyevanın işıqlı çöhrəsi canlanır. Eyni zamanda, nəcib Azərbaycan qadını, böyük bir nəslin layiqli övladı, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt, geniş erudisiya, zəngin mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər isə Zərifə xanımın portretini tamamlayır. Elə o andaca Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filmində baş qəhrəmanın – ulu öndər Heydər Əliyevin həyəcanlı səsini eşidirik: "Mən həqiqətən onu çox sevirdim. Onun da mənə olan məhəbbətini hiss edirdim. Düşünürəm ki, bizim bir-birimizə olan məhəbbətimizin köklərinin nə qədər dərində olduğunu sübut etməyə ehtiyac yoxdur". Hər dəfə bu filmə baxdıqda qəlbimizdə kövrək hisslər baş qaldırır. Ümummilli liderin öz həyat yoldaşına bəslədiyi müqəddəs məhəbbət ürəyimizi riqqətə gətirir. Görünür, ayrılıqlar kimi, qovuşmalar da tale işidir. Məhəbbətlə dolu iki ürək on səkkiz ildən sonra əbədi qovuşdu. Bu gün Fəxri xiyabanda iki qranit abidə ucalır. Hər gün onlarla, yüzlərlə, bəzən minlərlə azərbaycanlı bu məzarların önündə baş əyib, xeyir-dua alır.



Zərifə xanım kövrək çiyinlərində böyük məsuliyyət və fədakarlıqla ümummilli liderilə çiyin-çiyinə getmək, onun dayağı olmaq, qayğısına qalmaq və ağır günlərdə dərdinə şərik olmaq yükünü daşıdı. Övladlarını vətənin layiqli vətəndaşları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin 1995-ci ilin oktyabrında yerli mətbuata verdiyi müsahibədən bir parçanı da həyəcansız oxumaq olmur:

"- Siz Zərifə xanımı necə xatırlayırsınız?

- Ən əziz insan kimi. Onun vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişildi. Yəni indi mən o vaxtlardakı kimi gülə bilmirəm, baxmayaraq ki, onun həyatdan getməsindən on ildən çox vaxt ötür. Mənim həyatımda xoşbəxt hadisə olanda düşünürəm: o da bunun üçün sevinərdi. O, vəfat edəndə mənim böyük qızımın bir yaşı vardı. Yəni mənim qızlarım öz nənələrini görməyib, bu, onların tərbiyəsində böyük itkidir..."

Söz yox ki, sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanımın oftalmologiya elminin inkişafındakı xidmətləri olduqca böyükdür. Onun milli səhiyyəmizin inkişafında mükəmməl biliyə və bacarığa malik oftalmoloqların və ümumiyyətlə tibb işçilərinin hazırlanmasında böyük əmək sərf etməsi danılmazdır. Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dururdu. Doğulub boya-başa çatdığı mühitin onun taleyində böyük rolu olub. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi, mahir səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Azərbaycanın səhiyyə sisteminin inkişafında misilsiz xidmətləri olan Əziz Əliyev ömrü boyu onu əhatə edənlərin dərin hörmətini qazanmışdı. O, rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini olmuş və həmişə yüksək intellekti, təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdır. Dövrünün partiya və dövlət xadimləri arasında özünəməxsus geniş siyasi və mədəni dünyagörüşü ilə seçilmişdir. Əziz Əliyevin həyatının bütün mürəkkəb mərhələləri əslində onun övladları üçün həyat məktəbi idi. Belə bir ailədə böyüyən Zərifə xanım təbii ki, səmimiyyəti, zərifliyi, insanlara olan sevgisi ilə başqalarından tamamilə fərqlənirdi. Zərifə Əliyeva bütün yüksək keyfiyyətlərini - yaxşılıq etməyi, səxavəti, alicənablığı böyüdüyü ailədən əxz etmişdi. O ailəyə məxsus ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və vətənə məhəbbət, bəşəri dəyərlərə bağlılıq kimi xüsusiyyətlər onun həyatında öz təcəssümünü tapmışdı. Öz gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə gətirir və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir.

Zərifə xanım ilk növbədə həkim idi, həmişə həkimlik peşəsini çox uca tuturdu, həkimi günəşə bənzədərək deyirdi: "Həkim insanlara günəş qədər lazımdır". O dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı və traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. Xalqımızı bu müdhiş bəladan xilas etmək, Azərbaycanda regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq tələb olunurdu. Zərifə xanım Əliyeva məhz belə bir dövrdə Moskva şəhərindən vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Konkret müalicə təcrübəsindən başqa alim Azərbaycanda bu xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, traxoma ocaqlarını aşkar edir, həkim-oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Həmçinin uşaq evlərində ata-ana himayəsindən məhrum yeniyetmələr arasında traxomanın aradan qaldırılmasında müstəsna xidmətlər göstərirdi. Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində müvəffəqiyyətli nəticələr alır. Çünki sintomisin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa da malik idi. Bu tədqiqatların nəticələri Zərifə Əliyevanın 1959-cu ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil edir. Zərifə xanımın təklifi ilə yeni müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapır və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv edilir. Ona görə də qətiyyətlə demək olar ki, Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğv edilməsi Zərifə Əliyevanın adı ilə bağlıdır.

Böyük alim Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutundan sonra öz fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, daha sonra isə kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın zəruri problemlərinə xüsusi diqqət yetirir. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiq olunması ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim bütün dünyada birinci olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Bakı Məişət Kondisionerləri Zavodunda təşkil edilmiş bu laboratoriyada elmi-tədqiqat işləri ilə yanaşı, həmin zavodun və digər iri sənaye müəssisələrinin işçilərinə müalicə köməyi də göstərilibdir. Oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi də məhz Zərifə xanımın adı ilə bağlıdır. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə xanıma tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Həmin müəssisələrdə zəhərli maddələrin təkcə görmə orqanına deyil, həm də digər orqanlara, o cümlədən ağciyər, böyrək, qaraciyər və ürəyə təsiri də öyrənilib. Göstərilən istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri görkəmli alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyeva keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Qeyd edək ki, Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk alim qadın idi.

Məşhur oftalmoloq M.Krasnov Zərifə xanımın görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd edib ki, Zərifə Əziz qızı yaşasaydı, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbə rəhbərlik edə bilərdi.

Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqi ilə bağlı olub. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri akademikin "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə şərh edilib. Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik-diaqnostik istiqamətdə apardığı tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmləşib. Bu əsərlər arasında "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" xüsusi yer tutur. Alim göz yaşı xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, onun bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və başqa əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Xüsusi qeyd olunmalıdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

Zərifə xanımın tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı əks olunub. Görkəmli oftalmoloq alim bu əsərində həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin yalnız təhsilinin deyil, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim həkim-xəstə münasibətlərinə toxunaraq insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və "həkim xəstənin ən doğma adamıdır" demişdir.

Böyük alimin birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrədirdi, onlara diqqət və qayğı ilə yanaşırdı. Onun oftalmologiyanın müxtəlif sahələrinə həsr etdiyi monoqrafiyaları alimlərin və həkimlərin, həmçinin ali tibb məktəblərində təhsil alan tələbələrin stolüstü kitablarıdır.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə xoş sözlər deyiblər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi adlandırırdı. Dünya şöhrətli oftalmoloq, akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm". Akademik N.Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva Zərifə xanımın elmi tədqiqatlarının səciyyəvi xüsusiyyətlərini yüksək dəyərləndirərək yazırdı: "Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir". Tibb elmləri doktoru, professor Z.Skripniçenko alimin elmi fəaliyyəti barədə deyirdi: "Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. Bir ümumi dəftərə o yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi". Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünyaşöhrətli alim adlandıraraq "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" - demişdir.

Akademik Zərifə Əliyeva 150-dən artıq elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olub. Alim onlarla elmlər doktorunun və elmlər namizədinin rəhbəri olmuşdu. Akademik Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərinə görə Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülüb. Görkəmli alim həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü, o cümlədən "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi.

Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, elmi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Bir sözlə, təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər öz qiymətini heç zaman itirməyəcək.

Bakıda akademik Zərifə Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzi ilə üzbəüz bir bağ var. Adına "Elegiya" bağı deyirlər. Bu gün bura dünya işığından məhrum olan insanların ən gözəl istirahət məkanıdır. Bir vaxtlar baxımsız vəziyyətdə olan bu məkanda indi ağaclar nəğmə oxuyur. Bağda Zərifə Əliyevanın abidəsi ucaldılıb. Onun işıqlı obrazı davamçılarının yolunu işıqlandırır.

***E.Hüseynov***

## AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASINDA "DƏNİZ NƏQLİYYATININ İNKİŞAFI" ADLI ELMİ KONFRANS KEÇİRİLİB






***Aprelin 20-21-də Azərbaycan Dövlət Dəniz Akademiyasında müasir müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Dəniz nəqliyyatının inkişafı" mövzusunda tələbə, magistr və gənc tədqiqatçıların elmi konfransı keçirilib.***

Azərbaycan Dövlət Dəniz Akademiyasının elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Zahid Şərifov giriş sözündə bu ali təhsil ocağında Ümummilli liderin anadan olmasına həsr edilən konfransların təşkilinin artıq ənənə çevrildiyini söyləyib. Daha savadlı, yüksəkixtisaslı və dünyagörüşlü gənc nəslin yetişdirilməsinə xidmət edən belə konfranslar tələbələri elmi yaradıcılığa həvəsləndirmək, öz fikirlərini sərbəst və aydın ifadə etmək təcrübəsinə yiyələnmək baxımından da faydalıdır. Prorektor Ulu öndərin dəniz nəqliyyatı sahəsinə göstərdiyi xüsusi diqqət və qayğıdan danışarkən Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illəri gəmiçiliyin sürətli inkişafı dövrü kimi səciyyələndirib.

ADDA-nın tədris işləri üzrə prorektoru, professor Faiq Nağıyev belə tədbirlərin əhəmiyyətini, elm və təhsilin gənclər üçün gələcəyə açılan qapı olduğunu vurğulayıb.

Azərbaycan Dövlət Dəniz Akademiyası rektorunun müşaviri, dosent Vüqar Sadıqov "İlham Əliyev və Azərbaycanda dəniz nəqliyyatının inkişafı" mövzusunda məruzəsində Ulu öndərin dəniz nəqliyyatı ilə bağlı siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, həyata keçirilən qlobal və regional layihələrin dövlətin yaxından dəstəyi ilə təkcə son üç ildə donanmasını 15 yeni gəmi ilə möhkəmləndirməyə nail olan Gəmiçiliyin inkişafı üçün də yeni perspektivlər açdığını faktlarla əsaslandırıb.

184A qrupun əlaçı tələbəsi Mahmud Süleymanlı "Azərbaycan gəncliyinin Heydər Əliyev dövrü" mövzusunda məruzəsində Ulu Öndərin həyatının hər bir gənc üçün örnək olduğunu bildirib. Xüsusi ilə qeyd edib ki, gənclərin Heydər Əliyev irsinə sadiqliyi, ona olan sevgisi Ulu öndərin qurduğu müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması vəzifəsinin öhdəsindən ləyaqətlə gəlməkdə onlara yardımçı olacaq.

İki gün davam edən konfrans "Gəmiqayırma və gəmi təmiri", "Dəniz naviqasiyası və daşımalar", "Gəmi energetik qurğuları", "Gəmilərin elektrik avadanlıqları və avtomatikası", "Tətbiqi mexanika və riyaziyyat", "Su nəqliyyatının humanitar və dilçilik məsələləri" bölmələri üzrə öz işini davam etdirib və 6 bölmədə yüzə yaxın məruzə dinlənilib. Hər bölmədə ilk üç yeri tutan qaliblər müvafiq diplomlarla təltif olunub. Birinci yerin qalibləri isə, diplomla yanaşı, müvafiq fənlərdən imtahanqabağı 50 balla mükafatlandırılıblar.






## TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN SƏMƏRƏLİ İSTİFADƏSİ MÜZAKİRƏ OLUNUB

***Kiyevdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun səmərəli istifadəsi müzakirə olunub.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, müzakirələr Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycan, Ukrayna, Qazaxıstan və Gürcüstan dəmiryolçularının iştirakı ilə dördtərəfli görüş zamanı aparılıb.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Ukrayna Dəmir Yolu" SC-nin İdarə Heyətinin sədri Voytsex Balçun, "Qazaxıstan Dəmir Yolu" SC-nin prezidenti Kanat Alpısbayev və "Gürcüstan Dəmir Yolu" SC-nin sədri Mamuka Baxtadze iştirak ediblər.



Tədbirdə ölkələrarası yük axınının artırılması, həmçinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) səmərəli istifadəsi müzakirə olunub. Avrasiyada perspektiv nəqliyyat dəhlizlərindən biri kimi TBNM-in vacibliyi qeyd olunub. Eyni zamanda, bu dəhlizin potensialından istifadə edilməsinin, bu istiqamətə yük axınının cəlb edilməsinin zəruriliyi vurğulanıb.

Tərəflər TBNM-in Avropa İttifaqı ölkələrinə çıxışı üçün əməkdaşlıq coğrafiyasının genişləndirilməsi üzrə işlərin davam etdirilməsi məsələsində razılığa gəliblər.

Nəqliyyat istifadəçiləri üçün maksimal dərəcədə əlverişli şəraitin yaradılması bu sahədə səmərəliliyin və rəqabətə davamlılığın yüksəlməsini təmin edəcək. Buraya yükdaşıyıcılarına göstərilən xidmətlərin "bir pəncərə" rejimində təqdim olunması, onlara edilən təkliflər spektrinin genişləndirilməsi, yükdaşımalarda məcburi prosedurların optimizasiya və unifikasiyası kimi məsələlər aiddir.

TBNM infrastrukturunun inkişafı, eləcə də "Cənub-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzrə tranzit yük axınının artırılması məsələləri də müzakirə olunub.

Bildirilib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi əsasən Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanıb. Bu dəhlizin digər marşrutlarla müqayisədə əsas üstünlüyü isə tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə ölkələrimiz arasında əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq.

Görüşün yekununa dair müvafiq Protokol imzalanıb.

Eyni zamanda nümayəndə heyətlərinin rəhbərləri səfər çərçivəsində Ukraynanın baş naziri Vladimir Qroysmanla görüşüblər.

## "ŞƏRQ-QƏRB" VƏ "ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZLƏRİ POLŞA ÜÇÜN DƏ MARAQ KƏSB EDİR

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Polşaya rəsmi səfəri çərçivəsində bu ölkənin dəniz və daxili su hövzələri nəqliyyatı naziri Marek Qrabarçık və infrastruktur və tikinti naziri Andjey Adamçık ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə hər iki ölkənin limanları və tikinti üzrə qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi yolları müzakirə olunub.



Nazir Elmar Məmmədyarov Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar və görülən işlər barədə ətraflı məlumat verib. O, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və onun imkanları, eləcə də yaxın gələcəkdə logistika sahəsində nəzərdə tutulan irimiqyaslı layihələr haqqında danışıb.

Marek Qrabarçık gəmilərin tikintisi və balıqçılıq təsərrüfatının inkişaf etdirilməsi məsələlərinə toxunub və Polşanın təcrübəsi barədə danışıb.

Elmar Məmmədyarov Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat layihələri, xüsusən "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin iqtisadi faydalılığı və perspektivlərindən söz açıb, xüsusilə Şimal-Cənub dəmir yolu xəttinin Polşanın limanlarına çıxış imkanlarından danışıb.

Marek Qrabarçık dəniz limanları arasında əməkdaşlığı inkişaf etdirmək üçün azərbaycanlı həmkarlarını Polşaya dəvət edib. İnfrastruktur naziri Andjey Adamçık "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin Polşa üçün də maraq kəsb etdiyini söyləyib və Azərbaycandan olan tərəf müqabilləri ilə əməkdaşlığa hazırlığını ifadə edib.

Görüşdə SOCAR-ın Polşanın ORLEN və LOTOS şirkətləri ilə əməkdaşlığı, "Sarmatiya Beynəlxalq Boru Kəməri Müəssisəsi" çərçivəsində SOCAR-la Polşanın "Pşiyazn" şirkəti arasında əlaqələr məmnuniyyətlə qeyd olunub. Həmçinin Polşanın "Novol" şirkətinin və 20-dən artıq digər şirkətinin ölkəmizdə ticarət, sənaye, nəqliyyat, xidmət, tikinti, sığorta, bankçılıq və sair sahələrdə uğurlu fəaliyyəti vurğulanıb. Azərbaycan şirkətlərinin də daha fəal şəkildə Polşa iqtisadiyyatında təmsil olunması üçün əlverişli imkanların olduğu diqqətə çatdırılıb.

## ƏLİ LARİCANİ: "XƏZƏR DƏNİZİNİN TƏHLÜKƏSİZLİYİ SAHİLYANI ÖLKƏLƏR TƏRƏFİNDƏN TƏMİN OLUNMALIDIR"



***Azərbaycan ilə İran arasında iqtisadiyyat və turizm sahəsində geniş əməkdaşlıq əlaqələri qurulub və biz bu əlaqələrin inkişafının davam etdirilməsində maraqlıyıq.***

Bu sözləri İran İslam Şurası Məclisinin sədri Əli Laricani yerli mətbuata açıqlamasında deyib.

İran parlamentinin spikeri bildirib ki, Xəzər dənizinin təhlükəsizliyi sahilyanı ölkələr tərəfindən təmin olunmalıdır və kənar dövlətlərin dənizə müdaxiləsi yolverilməzdir. İki qonşu və dost ölkə Xəzər dənizində də birgə əməkdaşlıq əlaqələrinə malikdir. Bu da dövlətlərimizin və xalqlarımızın mənafeyinə xidmət edir.

Ə.Laricani nəzərə çatdırıb ki, müdafiə sahəsində əməkdaşlıq üçün müştərək komissiyanın yaradılması təklifini müsbət qəbul edir.

Beynəlxalq terrorçuluğun İslam dini adından sui-istifadə etməsinin narahatçılıq doğurduğunu bildirən spiker İslamın sülh və əmin-amanlıq dini olduğunu qeyd edib.

Regiondakı münaqişələrin sülh yolu ilə həllinin vacibliyini nəzərə çatdıran Ə.Laricani Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin İran tərəfindən dəstəkləndiyini də diqqətə çatdırıb.

***Rabil Kətanov***

## XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYA İMZALANMAĞA HAZIRDIR

***Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya, demək olar, imzalanmağa hazırdır. Bu barədə Rusiya Federasiyasının Rusiyanın MDB ölkələri ilə sərhədlərinin delimitasiyası və demarkasiyası məsələləri üzrə xüsusi nümayəndəsi, RF Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri İqor Bratçikov Moskvada "Xəzər dialoqu" Beynəlxalq iqtisadi forumunda məlumat verib.***



O deyib: "Hazırda Konvensiya, demək olar, hazırdır, müddəaların mütləq əksəriyyəti razılaşdırılıb. Özü də bu müddəalar beş tərəfin hamısının tələbatını harmonik şəkildə tarazlaşdırır. Problemlər azalır. Cəmi bir-iki problemimiz qalıb. Biz həqiqətən də məqsədimizə çatmaq üzrəyik və yaxın gələcəkdə imzalanması üçün sənədi liderlərimizə təqdim etmək üçün yaxşı şansımız var".

İ.Bratnikov xatırladıb ki, Xəzəryanı ölkələrin liderləri 2014-cü ildə Həştərxanda keçirilən IV Xəzər Sammiti zamanı həqiqətən çox böyük əhəmiyyət kəsb edən razılaşmalar əldə edərək, Xəzər dənizinin hüquqi statusu haqqında gələcək Konvensiyanın əsasını qoyublar. Onda qarşıya dəqiq vəzifə qoyulmuşdu: Qazaxıstanda keçiriləcək növbəti sammitə qədər bu sənədlər üzərində işi başa çatdırmaq.

Qazaxıstanın Rusiyadakı səfiri İmanqali Tasmaqambetov isə xatırladıb ki, "Xəzər təkcə müxtəlif regional dövlətlərin geosiyasi və hərbi-siyasi maraqlarının kəsişdiyi məkan deyildir. Xəzər ilk növbədə Şərq ilə Qərbi birləşdirən Böyük İpək Yolunun transkontinental marşrutlarının bir araya gəldiyi habdır.

Daha əvvəl RF XİN-in başçısı Sergey Lavrov azərbaycanlı həmkarı Elmar Məmmədyarovla danışıqların yekunlarına əsasən bəyan etmişdi ki, Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin növbəti görüşündə Konvensiya üzərində işin başa çatacağına ümid bəsləyir.

***Fəridə Abdullayeva***

## "BİR KƏMƏR, BİR YOL"

***Çin Xalq Respublikası (ÇXR) "Bir kəmər, bir yol" strategiyasının iştirakçısı olan ölkələr ilə nəqliyyat sahəsində çoxtərəfli və ikitərəfli formada 130-dan çox sənəd imzalayıb.***



Çinin Nəqliyyat Nazirliyinin rəsmisi U Çunqen deyib ki, avtomobil, hava, su və dəmir yolunu, habelə poçt xidmətini əhatə edən bu sənədlər ÇXR sədri Si Cinpinin "Bir kəmər, bir yol" (İpək Yolu İqtisadi Kəməri və Dəniz İpək Yolu) təşəbbüsünü irəli sürdüyü 2013-cü ildən sonra imzalanıb. Nəqliyyat əlaqəsinin strategiyanın həyata keçirilməsi üçün təməl prioritet olduğunu bildirən U Çunqen əlavə edib ki, hazırda Çindən həmin strategiyanın iştirakçıları olan ölkələrə yük və sərnişin daşınması üçün 356 marşrut var. Bundan başqa, "Bir kəmər, bir yol" ölkələrinin əksəriyyəti ilə dəniz əlaqəsi yaradılıb, hər həftə 4200 uçuş həyata keçirilir, Avropa istiqamətində bir neçə dəmir yolu xətti vardır.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu, mülki hava nəqliyyatına dair Saziş, nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu və dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Saziş imzalanmışdı.

Azərbaycan tərəfi müxtəlif səviyyəli görüşlərdə özünün nəqliyyat-tranzit imkanları ilə "Bir kəmər, bir yol" strategiyasının reallaşmasına dəstəyini ifadə edib. Bu il inşası başa çatacaq Bakı-Tbilisi-Qars xətti Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin etməyə, bununla da yüklərin daha qısa müddətdə Avropaya və əks istiqamətdə çatdırılmasına imkan verəcək.

***Şahin Cəfərov***



# TANAP-IN DƏNİZ HİSSƏSİNİN TİKİNTİSİNƏ MAYIN SONUNDA BAŞLANILACAQ

***Azərbaycan təbii qazının Türkiyəyə və qardaş ölkədən də Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) dəniz hissəsinin tikintisinə mayın sonunda başlanılacaq.***

Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

"TANAP-ın Dardanel boğazından keçəcək 17,6 kilometrlik dəniz hissəsinin tikintisinə may ayının sonlarında Asiya və Avropa qitələrində yerləşən tikinti meydançalarında başlanılacaq. Boruların və fiber-optik kabellərin sifarişi artıq verilib. Boruların düzülməsinə bu ilin iyul ayının ortasında başlanılacaq və sentyabrın ortalarında yekunlaşdırılacaq. Fiber-optik kabellərin çəkilməsinə isə oktyabrda başlanılması və dekabrın əvvəlində yekunlaşdırılması planlaşdırılır. TANAP-ın dəniz hissəsi üzrə bütün mexaniki işlərin isə 2018-ci ilin iyulunda başa çatdırılması nəzərdə tutulur", - deyə TANAP-ın baş direktoru bildirib.

Qeyd edək ki, boru kəmərinin Dardanel boğazından keçəcək 2x36 düymlük dəniz hissəsi üzrə ötən il iyulun 27-də "TANAP Doğal Gaz İletim A.Ş." şirkəti ilə "SapuraKencana" şirkəti arasında müqavilə imzalanıb.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP "Cənub" qaz dəhlizinin tərkib hissəsi olan layihədir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1810 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Boru kəmərinə tələb olunan kapital xərcləri 8,5 milyard ABŞ dollarıdır. Layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1334 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 450 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 58 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

# "ATLET -24" KRAN GƏMİSİNİN TƏMİRİ YEKUNLAŞIB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının balansında olan 40 tonluq "Atlet-24" kran gəmisinin "Bibiheybət" Gəmi Təmiri Zavodunda əsaslı təmiri yekunlaşıb.***









Keçən ilin noyabrından başlanan təmir müddətində gəminin sualtı və suüstü hissələrinin təmizlənməsi, rənglənməsi həyata keçirilib. Hərəkət-sükan kompleksi, dib-yan armaturları və protektor qurğuları sazlanıb. Gövdənin yararsız hissələri dəyişdirilib. Baş və köməkçi mühərriklər, nasoslar, seperatorlar, boru sistemləri, kayutlar və sair yüksək keyfiyyətlə təmir olunub.

Qeyd edək ki, təmir üçün lazımi detallar "Bibiheybət" Gəmi Təmiri Zavodunun Mexaniki təmir bölməsinin Torna sahəsində hazırlanıb. Avadanlıqların işləkliyinə bir daha əmin olmaq üçün gəmi dəniz sınağından keçiriləcək.

Məlumat üçün bildiririk ki, "Atlet-24" kran gəmisi 1990-cı ildə Polşada inşa edilib. Uzunluğu 63,8 metr, eni 15 metr olan gəmi 1520 at gücünə malik mühəriklə təchiz olunub və surəti 11,24 uzeldir.

# TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTU VƏ ONUN ÜSTÜNLÜKLƏRİ

***Dünya birjalarında neftin qiymətinin kəskin azalması, bu səbəbdən yaranan iqtisadi qlobal gərginliyin Azərbaycanda minimum səviyyəyə endirilməsi üçün ölkə rəhbərliyi mühüm qərarlar qəbul edərək, ciddi islahatlar aparır. Bu islahatların əsasını qeyri-neft sektorunun inkişaf etdirilməsi təşkil edir. Qeyri-neft sektorunun bir çox sahələrinə diqqət ayıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev logistika sahəsinin inkişafı, Azərbaycanın regionun ən aparıcı tranzit ölkəsinə çevrilməsi ilə bağlı əhəmiyyətli göstərişlər verib. Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Ələt qəsəbəsində yerləşən Bakı Limanının birinci fazasının yekunlaşması, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycandan keçən hissəsində işlərin sürətlə görülməsi, Azad Ticarət Zonasının yaradılması və bu kimi digər mühüm layihələr Azərbaycanı aparıcı tranzit ölkəyə çevirəcək. Azərbaycanın bu istiqamətdə gördüyü bir çox işlər sırasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) inkişafı xüsusi diqqət mərkəzindədir.***

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun üstünlükləri çoxdur. Çin-Avropa arasında ümumi yükdaşımanın əsas həcmi (95 faizi) ənənəvi okean marşrutu ilə həyata keçirilir (Hind okeanı, Qırmızı dəniz, Süveyş kanalı, Aralıq dənizi və sair). Bu marşrutla yük Çindən Avropaya 45-60 gün ərzində çatdırılır. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas üstünlüklərindən biri də elə vaxtla bağlıdır. Belə ki, yükün TBNM-lə Çindən Avropaya daşınması 12-20 gün ərzində reallaşdırılır. Daşınma əməliyyatı "Door to Door", yəni "Qapıdan qapıya" prinsipi ilə həyata keçirilir. Yük Çindən yüklənərək Avropada təhvil götürülür.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun digər üstünlüyü isə bir pəncərə prinsipidir. TBNM Konsorsiumu özündə marşrutun hər bir kəsiyində (Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və sair ) mövcud operatorları birləşdirir. Yük sahibi bu operatorların biri ilə müqavilə bağlamaqla, yükü asanlıqla bütün marşrut üzərindən Çindən Avropaya daşımaq imkanı əldə edir. TBNM-in digər üstünlüyü bu marşrut üzrə rəqabətqabiliyyətli "vahid keçid tarifi"nin təyin edilməsidir. Qeyd edək ki, artıq Rumıniya, Ukrayna, Polşa da TBNM-ə qoşulub. Türkiyənin də TBNM-ə qoşulması üzərində iş aparılır. Hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda mövcud "bir pəncərə" prinsipi Avropaya qədər genişlənib. Bu da yükdaşımaların logistikasını daha effektiv edir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu qeyd olunduğu kimi, bir pəncərə prinsipi əsasında fəaliyyət göstərir. Bu da artıq bütün marşrut üzərində "vahid keçid tarifləri"nin mövcudluğunu təmin edir. TBNM-də mütəmadi olaraq digər alternativ marşrutlarla müqayisəli təhlillər aparılır və endirimlər təklif olunmaqla marşruta yeni müştərilər cəlb olunur.

2016-cı ilin sonunda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun hüquqi statusu bir qədər də artırılıb və TBNM-in Beynəlxalq Assosiasiyası təsis edilib. Assosiasiyanın fəaliyyəti tranzit və xarici ticarət yüklərinin cəlb olunmasına, TBNM marşrutu üzrə inteqrasiya edilmiş logistika məhsullarının inkişafına yönəlib. Assosiasiyanın məqsədi səmərəli tarif siyasətinin həyata keçirilməsi, xərclərin və inteqrasiya edilmiş xidmətlərin optimallaşdırılması, daşıma prosesinin vahid texnologiyasının yaradılması, sərhəd və gömrük prosedurları ilə bağlı inzibati əngəllərin azaldılması, yük və konteynerlərin limanlarda birləşmə məntəqələrində emalına yardım etməkdir. Hazırda TBNM-in üzvlərinə Qazaxıstan Dəmir Yolları, Aktau limanı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, Gürcüstan Dəmir Yolları, Batumi limanı, Ukrayna Bərə Operatoru, Ukrayna Dəmir Yolları, Polşa Dəmir Yolları, Rumıniya Dəmir Yolları daxildir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzər dənizində yeganə bərə operatorudur. Cəmiyyətin 13 gəmi-bərəsi var. Onların da hamısı TBNM üzrə daşımalara cəlb olunub. Çin-Avropa istiqaməti üzrə daşımalara Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ən böyük bərələri ayrılıb. Ümumiyyətlə, TBNM-in mövcudluğu bu marşrut üzrə yükdaşımaların asanlaşdırılması və optimallaşdırılmasına böyük töhfə verib və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də bu qurumun ayrılmaz və aparıcı üzvüdür. Bu gün AXDG-yə məxsus bərələr Xəzər dənizi üzərindən Dəmir Yollarının davamı funksiyasını daşıyır. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda ən aparıcı sektorlardan biri məhz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsusdur. Belə ki, marşrutun ən böyük kəsiyi Qazaxıstandan sonra Xəzər dənizidir. Burda isə bərə operatoru funksiyasını yalnız AXDG yerinə yetirir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC donanmasında bərələrin sayını artırmağa çalışır. Belə ki, QSC konteyner və vaqonlar daşıyacaq iki yeni unikal Ro-Pax/bərə tipli gəmilər sifariş edib. Xəzərdə suyun səviyyəsi, limanlar və infrastruktur nəzərə alınmaqla tikiləcək Ro-Pax/bərə tipli gəmilər gəmiçiliyin mütəxəssisləri və Odessa Dəniz Mühəndislik Bürosunun mühəndisləri ilə müştərək şəkildə layihələndirilib. Tikiləcək bərələr Transxəzər nəqliyyat dəhlizində artan yüklərin həcmini qarşılamağa xidmət edəcək. Ən əsası isə Ro-Pax/bərə tipli unikal gəmilər Bakı Gəmiqayırma Zavodunda tikilir.

Qazaxıstanda inşa olunan Kurık limanında bərə infrastrukturu və kompleksinin yaradılması da Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna öz müsbət töhfəsini verəcək. Belə ki, bununla ümumi marşrut üzrə bərələrlə yüklərin daşınmasının effektivliyi daha da artacaq. Yeni Kurık limanının daha əlverişli coğrafi məkanda yerləşməsi ümumi dövriyyənin artmasına, bərə əməliyyatlarının limanda daha optimal şəkildə aparılmasına imkan verəcək.

Qazaxıstan bərələrinin Xəzər dənizində üzməsi ümumi marşrut üzrə yükdaşıma həcminin artmasına səbəb olacaq. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və Qazaxıstan Dəmir Yolları arasında Strateji Əməkdaşlıq, eyni zamanda bərələrin birgə əməliyyat olunması haqqında Anlaşma Memorandumu var. Qazaxıstanlı partnyorlarımız tərəfindən yeni bərələrin əldə olunması Xəzərin ümumi yükdaşıma potensialının artmasına təkan verəcək.

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Mətbuat xidməti***




# "BALAKƏN" GƏMİ-BƏRƏSİ TEZLİKLƏ AÇIQ DƏNİZƏ QAYTARILACAQ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Balakən" gəmi-bərəsi "Bibiheybət" Gəmi Təmiri Zavodunda təmirə dayanıb. Hazırda tərsanədə olan gəmi-bərənin təmir işləri "Zığ" Gəmi Təmiri Zavodunun mütəxəssisləri ilə birgə aparılır.***



Artıq xeyli iş görülüb. Belə ki, gəminin motovozları təmir olunub, təkərləri dəyişdirilib, sualtı gövdə hissəsinin təmizlənməsi və rənglənməsi başa çatdırılıb.

Hazırda gəminin avar valının təmirinə başlanılıb. Onun sükan qurğusuna da baxış keçiriləcək.

Təmir işlərinin yaxın günlərdə başa çatdırılması nəzərdə tutulan gəmi-bərə müvafiq yoxlanışdan uğurla keçdikdən sonra yenidən açıq dənizə qaytarılacaq.

Xorvatiyanın Ulyanik tərsanəsində inşa edilən "Balakən" gəmi-bərəsi 2012-ci ildə istismara verilib. Uzunluğu 155, eni 18 metr olan gəmi-bərə hər səfərdə göyərtəsində 54 vaqon götürə bilir.

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ HYUSTONDA "DƏNİZDƏ TEXNOLOGİYALAR KONFRANSI"NDA İŞTİRAK EDƏCƏK

***Mayın 1-4-də ABŞ-ın Texas ştatının Hyuston şəhərində keçiriləcək neft və qaz sənayesi üzrə ən böyük sərgi və konfrans sayılan "Dənizdə Texnologiyalar Konfransı"na Azərbaycan nümayəndə heyəti də qatılacaq.***

Energetika Nazirliyindən bildirilib ki, nümayəndə heyətinə energetika naziri Natiq Əliyev rəhbərlik edəcək. Konfransda nazirin Azərbaycanın neft-qaz sahəsində qazandığı nailiyyətlər, Xəzərin enerji resursları və enerji mərkəzi kimi imkanları, dənizdə neft yataqlarının işlənməsində tətbiq edilən texnologiyalar barədə çıxışı nəzərdə tutulur.

Yüz iyirmi ölkəni təmsil edən 2400-dək iştirakçının qatılacağı tədbir enerji mütəxəssislərinin dəniz ehtiyatları və ətraf mühit məsələləri üzrə elmi-texniki biliklərini təkmilləşdirmək məqsədilə fikir mübadiləsi apardıqları mühüm platforma, neft-qaz sənayesi üçün qlobal əhəmiyyətə malik konfrans kimi qiymətləndirilir.

# ƏLƏTDƏ YARADILAN AZAD TİCARƏT ZONASI ÖLKƏLƏRİN İQTİSADİYYATINI ƏLAQƏLƏNDİRƏCƏK

***Ələtdə yaradılan Azad Ticarət Zonası bir çox ölkənin iqtisadiyyatını əlaqələndirəcək.***



Bu sözləri Rumıniyanın keçmiş Baş naziri Petre Roman deyib.

O bildirib ki, Azad Ticarət Zonası hər zaman ölkə iqtisadiyyatı üçün faydalı olub. Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və ətrafında Azad Ticarət Zonasının yaradılması Azərbaycan üçün müsbət haldır və üstünlükdür.

"Mən inanıram ki, şirkətlər arasında uğurlu əlaqələr qurularsa məhsul və xidmətlərin təşviqi üçün maraq yaranar. Bu isə böyük uğurların əldə edilməsi deməkdir. Xəzər regionu çox müxtəlif və mürəkkəbdir. Azərbaycan tərəfindən göstərilən bu təşəbbüs Çin də daxil olmaqla digər ölkələrin iqtisadiyyatlarının qarşılıqlı əlaqəsinin yaranmasına xidmət edəcək", - deyə R.Peter vurğulayıb.

# MİQRANTLARI DAŞIYAN QAYIQ BATIB

***Egey dənizində miqrantları daşıyan qayığın batması nəticəsində 6 nəfər həyatını itirib.***



Anadolu agentliyinin verdiyi xəbərə görə, Yunanıstan sahil təhlükəsizlik xidmətinin xilasetmə dəstələri qayığın batdığı bölgəyə göndərilib.

Hadisə nəticəsində biri uşaq, dördü qadın olmaqla altı nəfər həyatını itirib. Səhər saatlarında batdığı güman edilən qayıqda neçə nəfərin olduğu bilinmir.

Bölgədə axtarış-xilasetmə işləri davam etdirilir.

# AZƏRBAYCAN NEFTİ İLƏ DOLU İLK TANKERİN SUPSA TERMİNALINDAN DÜNYA BAZARINA GÖNDƏRİLMƏSİNDƏN 18 İL ÖTÜR






***İndiyədək Supsa terminalından 592,35 milyon barrel Azərbaycan nefti 796 tankerə yüklənərək dünya bazarına yola salınıb.***

"Əsrin müqaviləsi"nin reallaşdırılması ilə əlaqədar Azərbaycan qısa müddətdə etibarlı və şaxələndirilmiş ixrac neft kəmərləri sistemi yaradıb ki, həmin sistemin əsas elementlərindən biri də Bakı-Supsa neft boru kəməri adı ilə tanınan Qərb İxrac Boru Kəməridir (QİBK). "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinsulu hissəsindən (AÇG) hasil olunan neft həcmlərinin Qərb marşrutu üzrə dünya bazarına çıxarılması məqsədilə inşa olunan Qərb İxrac Boru Kəməri bu gün də öz əhəmiyyətini itirməyib və Azərbaycanın neft sənayesinə xidmət edir.

Bakı-Supsa boru kəməri hazırda həm AÇG layihəsi üzrə çıxarılan, həm də Xəzərin Azərbaycan sektorundakı digər neft yataqlarından hasil olunan xam nefti Qara dəniz sahilinə nəql edir və həmin neft orada tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarına yola salınır. QİBK Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Azərbaycan və Gürcüstandan keçməklə Qara dənizin Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) boru kəmərinin sahibidir və AÇG Hasilatın Pay Bölgüsü Sazişinin tərəfdaşları adından QİBK-ni istismar edir.

Kəmərin tikintisi Azərbaycan Respublikası ilə Gürcüstan arasında 1996-cı ilin aprel ayında bağlanan Hökumətlərarası Sazişin ratifikasiyasından sonra başlanılıb və 1998-ci ilin noyabr ayında başa çatıb. QİBK 1999-cu ilin fevralından istismardadır. Azərbaycan xam neftini Supsa terminalına çatdıran Qərb İxrac Boru Kəmərinin tikintisi texniki nailiyyət hesab olunur. Tikinti işləri bir sıra qeyri-adi və çətin məsələlərlə, o cümlədən ekoloji səbəblərdən boru kəmərinin bütünlüklə yerin altından keçməsi kimi çətinliklərlə üzləşib. Uzunluğu 830 kilometr olan boru kəməri 89-dan çox çaydan və 18 aktiv seysmik qırılma zonası ilə kəsişmədən keçir. Boru kəmərinin obyektlərinə - üçü Azərbaycanda, üçü isə Gürcüstanda olmaqla altı nasos stansiyası daxildir. Həmçinin Gürcüstanda iki təzyiqazaltma stansiyası yerləşir. Kəmər üzrə 59 kiçik siyirtmə (kəmər boyunca yoxlama siyirtmələri də daxil olmaqla) və hər stansiyada biri olmaqla Azərbaycanda bir aralıq ərsinburaxma stansiyası var. Boru kəməri 1190 metrlik ən yüksək nöqtəyə qalxaraq Gürcüstanın Supsa limanında yenidən dəniz səviyyəsinə qayıdır.

Qara dənizin Gürcüstan sahilində, Lançxuti rayonunda yerləşən Supsa terminalı isə QİBK vasitəsilə nəql olunan Azərbaycan xam neftini dənizdəki yükləmə qurğuları ilə neft tankerlərinə yüklənməzdən əvvəl saxlamağa imkan verir. QİBK-nin tikintisi başa çatdıqdan sonra 1999-cu il aprelin 17-də Supsa terminalının təntənəli açılışı olub. Həmin gün Xəzərin Azərbaycan sektorundakı "Çıraq" platformasından hasil edilmiş 80 min ton neftlə yüklənmiş ilk tanker Supsa terminalından dünya bazarına yola salınıb. Bununla da, Azərbaycan xam neftinin tankerlər vasitəsilə Bosfor boğazından keçərək dünya bazarına çatdırılmasına başlanılıb.

Supsa terminalı 100 faiz milliləşdirilib və Gürcüstan iqtisadiyyatının mühüm əhəmiyyət kəsb edən bir elementidir. Terminalın stansiya girişi QİBK-də hər hansı buxar sızmasının qarşını almaq məqsədilə münasib təzyiqi saxlamaq üçün, həmçinin terminalın borular sistemini qorumaq üçün təzyiq tənzimləmə klapanından ibarətdir. Xam neft kommersiya uçotu qovşağından keçərək hər birinin tutumu təxminən 40 min ton olan xam neft saxlama çənlərinə ötürülür. Supsa terminalında, həmçinin xam neftin qəbulu və ixracı obyektlərini idarə etmək üçün mərkəzi dispetçer otağı yerləşir.

İxrac yükləmə sistemi isə dizel ilə işləyən üç yükləmə nasosundan ibarətdir. Onlar xam nefti saxlama çənlərindən çəkir və ixrac sisteminin kommersiya uçotu qovşağına ötürür. Uzunluğu 5,6 kilometr olan 36 düymlük boru kəməri terminaldan dənizə qədər davam edir və PLEM (boru kəməri sonundakı manifold) dəsti ilə qurtarır. 16 düymlük elastik şlanqlar PLEM manifoldunu lövbər tipli yanalma buyuna (CALM) birləşdirir, xam nefti tankerlərə ötürmək üçün isə 20 düymlük üzən şlanqlardan istifadə olunur. 2010-cu ildə Supsa terminalında xam neft saxlama çənlərinin daxili yoxlanılması və təmiri layihəsi başlanıb. Dörd saxlama çənindən üçü API 653 standartına uyğun olaraq yoxlanıb və təmir edilib. Sonuncu xam neft saxlama çənləri üzrə təftiş 2016-cı ildə aparılıb.

Ötən müddətdə QİBK-də geniş təmir və dəyişdirmə işləri görülüb. 2007-ci ildə kəmər bu məqsədlə dayandırılıb, Gürcüstanda və Azərbaycanda seqmentləri dəyişdirilib. Bu iş 2008-ci ilin birinci rübündə başa çatdırılıb. Boru kəməri marşrutunun dayandırıldığı müddətdə digər marşrutlardan istifadə edilib ki, tələbata və ya AÇG hasilatına heç bir təsir olmasın. 2008-ci ildə isə kəmərin yenidən tam istismara verilməsi proqramı həyata keçirilib.

2016-cı ildə Supsa terminalı 30,3 milyon barreldən çox Qərb İxrac Boru Kəməri marşrutu vasitəsilə neft ixrac edib. 1999-cu ildən bu il aprelin 17-dək Səngəçal terminalından Bakı-Supsa kəmərinə 593,33 milyon barrel Azərbaycan nefti vurulub. Həmin neftin 592,35 milyon barreli Supsa terminalında 796 tankerə yüklənib və dünya bazarına yola salınıb.

SOCAR isə bu ilin mart ayında Supsa limanından 178 min 703 ton neft ixrac edib. Cari ilin yanvar-mart ayları ərzində Supsadan 704 min 85 ton xam neft ixrac olunub. 2016-cı ildə isə Supsa limanından 2 milyon 383 min 854 ton neft dünya bazarına göndərilib. SOCAR tərəfindən ixrac olunan xam neftin göstəriciləri həm Azərbaycan dövlətinə, həm də şirkətin özünə məxsus xam neft həcmlərini əks etdirir.

BP-nin Bakı ofisinin mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı AZƏRTAC-a bildirib ki, Qərb İxrac Boru Kəməri Azərbaycan və Gürcüstan ərazisindən keçməklə ətraf mühitə qayğı ilə və ən son texnologiyalar tətbiq olunmaqla inşa olunub, səmərəli səkildə istismar olunan bir ixrac sistemidir. Operator olaraq BP şirkəti əmindir ki, bu kəmər Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri - BTC ilə yanaşı Azərbaycan neftini dünya bazarına etibarlı və tam təhlükəsiz şəkildə daşımaq üçün çox əhəmiyyətlidir. BP şirkəti düz 18 ildir ki, bu ixrac sistemini sənayenin ən yüksək texniki təhlükəsizlik və ətraf mühit standartlarına uyğun istismar edir və hələ uzun illər bu kəmər Azərbaycan neftinin eyni yüksək standartlarla dünya bazarına daşınması üçün istifadə olunan şaxələnmiş ixrac yollarından biri olacaq.

"Onu da qeyd edək ki, kəmərin indiyədək gətirdiyi faydalara neftdaşımaları vasitəsilə əldə olunan mənfəətlərdən əlavə həm Azərbaycanda, həm də Gürcüstanda tikinti dövrü üçün minlərlə müvəqqəti iş yeri, sonralar isə sistemi idarə etmək üçün yaradılmış uzunmüddətli iş yerləri, kəmər marşrutu boyunca yerləşən kəndlərdə həyata keçirilmiş iri sosial inkişaf və ətraf mühitin qorunması layihələri və sair daxildir", - deyə T.Bayatlı əlavə edib.

*Nihad Budaqov*

# "AZƏRBAYCAN: ƏLƏTDƏ YERLƏŞƏN YENİ BAKI LİMANI AVRASİYA BAZARLARI ÜÇÜN MƏRKƏZ VƏ STRATEJİ QOVŞAQ ROLUNU OYNAYIR"

***İtaliyanın iqtisadi xəbərlər yayan "Teleborsa" agentliyinin saytında "Azərbaycan: Ələtdə yerləşən yeni Bakı Limanı Avrasiya bazarları üçün mərkəz və strateji qovşaq rolunu oynayır" adlı məqalə verilib. Bu məqalə İtaliyanın digər aparıcı kütləvi informasiya vasitələrinin böyük marağına səbəb olub. Belə ki, həmin məqalə "La Repubblica", "La Stampa", "Il Messaggero", "Qui Finanza" kimi aparıcı qəzetlər və xəbər portalları tərəfindən də yayılıb.***




Məqalədə Bakı Dəniz Limanının tarixi, yenidən qurulması, strateji əhəmiyyəti və perspektivlərindən bəhs olunur. Qeyd edilir ki, 1902-ci ildə tikilmiş Bakı Dəniz Limanı Qərb və Şərq arasında tarixi İpək yolu, həmçinin Şimali Avropa, Rusiya, Yaxın Şərq və Cənubi Asiyanı birləşdirən Şimal-Cənub nəqliyyat dəhlizi kimi körpü rolunu oynayır. Dəniz limanının əhəmiyyəti nəzərə alınaraq onun yenidən qurulmasına Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən xüsusi diqqət yetirildiyi, iqtisadiyyatın şaxələndirilməsi üçün strateji layihə kimi hökumətin prioritetləri siyahısına daxil edildiyi bildirilir.

Ələt ərazisində limanın yenidən qurulması və genişləndirilməsi haqqında məlumat verilən məqalədə yeni dəniz limanının tikintisinin ilk mərhələsinin 2017-ci ilin sonlarında başa çatacağı və 10-11 milyon ton yük qəbul edəcəyi, tikintinin tam başa çatmasından sonra limanın 25 milyon tona qədər yük və bir milyon konteyner qəbul etmək imkanına malik olacağı bildirilir.

Məqalədə, həmçinin yeni dəniz limanının strateji əhəmiyyətindən, ölkəmiz üçün iqtisadi faydasından bəhs edilərək qeyd olunur ki, liman Avropa və Asiya arasında yerləşməklə və Çin, Rusiya, Türkiyə kimi vacib bazarlara giriş təmin etməklə, Avrasiya regionunda ən əhəmiyyətli ticarət və logistik qovşaq rolunu oynayacaq.

Vurğulanır ki, yeni dəniz limanı əsas Avrasiya bazarlarından çox əlverişli məsafədə yerləşir. Azərbaycan hökuməti tərəfindən irəli sürülən bu layihə Avropa və digər ölkələr ilə qarşılıqlı ticarəti və sərmayə imkanlarını daha da genişləndirmək imkanına malik olacaq.

Məqalənin tam mətni ilə http://www.teleborsa.it/News/2017/04/13/azerbaijan-il-nuovo-porto-di-baku-ad-alyat-hub-e-snodo-strategico-per-mercati-eurasia-7.html#.WO82wvmGOM8 linkindən tanış olmaq mümkündür.

*Asiman Əsədov*

# LİMANÇI ŞƏHİDLƏRİN XATİRƏSİNƏ ABİDƏ UCALDILACAQ

***Limançı şəhidlərin xatirəsinə ucaldılacaq abidə ilə bağlı keçirilən müsabiqənin qalibləri məlum olub.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC tərəfindən Qarabağ döyüşlərində Vətənin azadlığı uğrunda canını qurban vermiş beş limançı şəhidin xatirəsinə həsr olunan abidə ucaldılacaq. Bununla əlaqədar olaraq Bakı Limanı heykəltaraşlar və həvəskar yaradıcı şəxslər arasında müsabiqə elan edib. Elan olunan müsabiqədə bir çox peşəkar və həvəskar yaradıcı şəxslər iştirak ediblər. Şəhid ailələrinin üzvləri tərəfindən seçilmiş müsabiqənin qalibləri elan olunub. Müsabiqənin qalibləri Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının 1-ci kurs tələbələri Azad Aslanov və Sahib Yaqubov seçiliblər.




Müsabiqəyə qatılmış bütün iştirakçılar və şəhid ailələrin qohumları ilə görüşdə Bakı Limanının baş direktoru Taleh Ziyadov qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı döyüşlərdə ölkəmizin bütün qurumlarında olduğu kimi Bakı Limanının da işçiləri qəhrəmanlıq nümayiş etdirib, beş əməkdaşımız isə şəhidlik zirvəsinə ucalıb. Onlar həyatlarının ən gözəl dövründə, 30 yaşına çatmadan, bəziləri ailə qurmadan Dağlıq Qarabağda döyüşlərə qatılıblar.

Baş direktor Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında işğal olunmuş torpaqların azad olunacağı ilə bağlı əminliyini bildirib, keçən ilin aprel qələbəsinin Milli Ordumuzun şanlı tarixinə qızıl hərflərlə yazıldığını deyib.

Tədbirə qatılmış iştirakçılar və şəhid ailələrinin üzvləri Prezident İlham Əliyevin siyasətinə dəstək olduqlarını bildiriblər.

## ETİBARSIZ QAYIQLARDA 200 KİLOMETRLİK BOĞAZI KEÇMƏYƏ ÇALIŞIBLAR




***Aprelin 16-da Aralıq dənizində rekord sayda - təxminən 4,5 min mühacir xilas edilib. Onlar rezin qayıqlarda Siciliya boğazı vasitəsi ilə Liviyadan Avropaya keçmək istəyirmiş.***

Euronews telekanalı xəbər verir ki, İtaliyanın sahil mühafizə xidməti və bir neçə qeyri-hökumət təşkilatının gəmiləri bir gündə ümumilikdə 35 xilasetmə əməliyyatı keçirib. Əməliyyat zamanı katerlərin birində 7 cəsəd, Liviya sahilləri yaxınlığında sahibsiz qalan qayıqda isə daha 20 cəsəd aşkarlanıb.

Miqrant axınının rekord sayda artmasına hava şəraitinin yaxşılaşması səbəb olub. Qeyri-leqal mühacir daşıyanlar özlərinin etibarsız və əksər vaxtlarda həddən artıq yüklənmiş qayıqları ilə 200 kilometrlik boğazı keçmək üçün sakit dənizdən istifadə etməyə çalışırlar.

Miqrasiya üzrə Beynəlxalq Təşkilatın məlumatına görə, bu il yanvarın 1-dən indiyədək təxminən 32 min miqrant Aralıq dənizi vasitəsi ilə Avropaya keçib, 665 nəfər isə yolda həlak olub və ya itkin düşüb.

## GÖYƏRTƏSİNDƏ 28 MÜHACİRİN CƏSƏDİ OLAN QAYIQ AŞKARLANIB

***Liviya balıqçıları Aralıq dənizində göyərtəsində 28 mühacirin cəsədi olan qayıq aşkarlayıblar. "Röyters"in verdiyi xəbərə görə, aralarında 4 qadının olduğu miqrantların aclıq və susuzluqdan öldüyü ehtimal olunur.***

Məlumata görə, cəsədlər qanunsuz miqrantlar üçün nəzərdə tutulmuş qəbiristanlıqda dəfn olunub.

Qayığın mühərrikinin sıradan çıxması səbəbindən miqrantlar dənizin ortasında köməksiz vəziyyətdə qalıblar. Ölənlərin milliyyəti barədə məlumat verilmir. Onların Afrika qitəsindən olduğu bildirilir.

## "ARSENAL QƏHRƏMANI" GƏMİSİ QARA DƏNİZDƏ QƏZAYA UĞRAYIB

***Türkiyənin "Gunes shipping" kompaniyasına məxsus "Arsenal qəhrəmanı" ("Geroi Arsenala") yük gəmisinin Qara dəniz akvatoriyasında qəzaya uğraması nəticəsində 7 nəfər itkin düşüb.***




Xarici KİV-lər xəbər verir ki, qəza zamanı gəminin göyərtəsində ümumilikdə 12 nəfər - iki rusiyalı, 9 ukraynalı və bir gürcüstanlı dənizçi olub. Yük gəmisinin Rostov vilayətindən Türkiyəyə buğda apardığı bildirilir.

Qəzanın baş verdiyi ərazidə bir neçə xilasetmə gəmisi və aviasiya fəaliyyət göstərir. Sürəti saniyədə 20 metrə çatan külək və yüksək dalğalar Rusiyanın Fövqəladə Hallar Nazirliyinin 140 əməkdaşının cəlb olunduğu axtarış-xilasetmə əməliyyatını çətinləşdirir.

## VERGİ LİMANLARINDAN 25 MİLYARD AVRO "QABAĞA DÜŞÜBLƏR"



***2016-cı ildə Avropanın ən iri bankları öz gəlirini ofşor zonalarda qeydiyyata aldırmaqla 25 milyard avro vəsaiti vergidən yayındırmağa müvəffəq olublar.***

"Oxfam" təşkilatı bildirir ki, ən populyar vergi limanları İrlandiya və Lüksemburq sayılır. Bank gəlirlərinin 29 faizi bu iki ölkədə qeydiyyatdan keçirib. Özünün 134 milyon avro məbləğində gəlirlərini Kayman adalarında qeydiyyata aldırmış "BNP Paribas" bankı da vergi qaçaqlarının siyahısında yer tutur.

Almaniyanın "Deutsche Bank"ı daha da irəli gedib. Bank öz ölkəsində cüzi itkilərini qeydə aldırsa da, vergi limanlarındakı gəlirləri təxminən 2 milyard avro təşkil edib.

"Oxfam" hesab edir ki, Avropa İttifaqına daxil olan ölkələrin hökumətləri iri maliyyə institutlarının vergi ödənişlərinə daha ciddi nəzarət etməlidirlər. Çünki bu cür böyük vergi itkiləri üzv ölkələrin iqtisadiyyatını zədələyir, bundan isə büdcədən maaş alan vətəndaşlar - həkimlər, müəllimlər və sosial sahədə çalışanlar daha çox ziyan görürlər.

## AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9 MİLYON 823 MİN 667 NƏFƏRDİR

***İlin əvvəlindən ölkə əhalisinin sayı 13 min 686 nəfər və yaxud 0,1 faiz artaraq mart ayının 1-i vəziyyətinə 9 milyon 823 min 667 nəfərə çatıb.***



Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin bir kvadratkilometrə düşən sıxlığı 113 nəfər olub. Əhalinin ümumi sayının 53 faizi şəhər, 47 faizi isə kənd sakinlərinin, 49,9 faizi kişilərin, 50,1 faizi isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə orta hesabla 1006 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-fevral ayları ərzində ölkədə 24 min 648, yaxud hər gün orta hesabla 418 doğulmuş körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 15,7 təşkil edib. Körpələrdən 424-ü əkiz, 12-si üçəm doğulanlardır. Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 47,3 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 112 oğlan düşür (bioloji norma 105-107 təşkil edir).

Hazırda ölkədə əhalinin təkrar istehsalı təmin olunaraq uşaq doğmaq qabiliyyətinə malik olan hər bir qadına bütün ömrü boyu 2 uşaq düşür.

Yanvar-fevral aylarında ölkədə 11 min 70 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 7,1 təşkil edib. Cari ilin ilk iki ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 8 min 476 nikah və 2 min 422 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,4, boşanmaların sayı isə 1,5 olub.

Bu ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 306 nəfər gələn və 198 nəfər ölkədən gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 108 nəfər təşkil edib.





# BELƏ TƏLİMLƏR GƏLƏCƏKDƏ DƏ DAVAM ETDİRİLƏCƏK

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC əməkdaşları üçün növbəti təlim təşkil edib. Uzun illər dənizdə çalışan kapitan Titos Giannakakisin təlimçiliyi ilə baş tutan bu dəfəki məşğələ “TKİSIN effektiv tətbiqi və DPA tələbləri” mövzusuna həsr olunub.***

İnteraktiv formada keçən təlimdə əmniyyətli idarəetmə sistemi barədə iştirakçılara ətraflı məlumat verilib. Beynəlxalq gəmiçilikdə sahildə təhlükəsizliyə cavabdeh şəxslərə (DPA) dair mövcud təcrübələr öyrədilib.

Diqqətə çatdırılıb ki, Beynəlxalq Təhlükəsiz İdarəetmə Məcəlləsinə əməl etmək barədə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC öhdəlik götürüb. Bu məcəllədə əmniyyətli idarəetmə sisteminin tətbiqi vacib sayılır. Çünki, ancaq sözügedən sistemdən istifadə etməklə, yüksək keyfiyyətli əmək, sağlamlıq və təhlükəsizlik standartlarına nail olmaq mümkündür.

Xatırladaq ki, bu növ təlimlər gələcəkdə də davam etdiriləcək. Əsas məqsəd Cəmiyyətin strateji hədəflərinə uyğun təlim və təhsilə olan ehtiyacları müəyyənləşdirərək insan resurslarının davamlı inkişafını, eləcə də personalın yeni istehsalat vəzifələrinin icrasına hazırlanmasını, işçilərin biliklərinin sistemli şəkildə yenilənməsini, əməkdaşların peşə mədəniyyətinin və peşə reytinqinin artırılmasını mütərəqqi təhsil və təlim metodları ilə təmin etməkdən ibarətdir.

## SALONİKİ LİMANI 232 MİLYON AVROYA SATILIB



***Yunanıstanın Saloniki şəhərinin dəniz limanının 67 faiz səhmləri beynəlxalq tenderdə 231,926 milyon avroya “Deutsche İnvest Equilty Partners GmbH”, “Belterra İnvestments LTD” və “Terminal Link SAS” şirkətlərindən ibarət olan konsorsiuma 2051-ci ilə kimi konsessiyaya verilib.***

Konsorsium 7 il çərçivəsində limana 180 milyon avro sərmayə yatırmalıdır. Saloniki limanının özəlləşdirilməsi ilə əlaqədar beynəlxalq tender 2014-ci ildə elan edilib və Yunanıstanda həyata keçirilən özəlləşdirmə proqramının bir hissəsidir.

*İqbal Hacıyev*



# UÇAN AVTOMOBİL



***Uçan avtomobil “Aeromobil”in satış qiyməti açıqlanıb.***

CNN xəbər verir ki, Slovakiyada formalaşdırılan avtomobil artıq satışa çıxarılıb. Monakoda rəsmi təqdimatı keçirilən uçan avtomobilin qiyməti 1,3 milyon dollar müəyyənləşib. Onun əsas üstünlüyü həm quruda, həm də havada gedə bilməsidir.

Bundan əlavə, müasir dizayna malik olan “Aeromobil”in sürəti quruda saatda maksimum 160 kilometr, havada isə 200 kilometrdir. Kütləsi 450 kiloqram olan idman görünüşlü avtomobil iki nəfərlikdir. Həmçinin uçan avtomobilin iki paraşütü var. Bu, avtomobil havada olarkən yarana biləcək hər hansı problemin qarşısını almağa hesablanıb.

Slovakiyada yerləşən şirkət 20 ildən çoxdur ki, “Aeromobil”in istehsalı üzərində çalışır.



## İNSANIN DÜŞÜNCƏLƏRİNİ OXUYAN QURĞU



***Yaponiyanın Toyohaşi Texnoloji Universitetinin mütəxəssisləri insanın düşüncələrini oxuyan qurğu hazırlayıblar. Yeni ixtira 0-dan 9-dək rəqəmləri 90 faiz, yapon dilində bəzi hecaları isə 61 faiz dəqiqliklə tapa bilir.***

“dni24.com” saytı xəbər verir ki, nail olduqları göstəricilərin o qədər də yüksək olmadığını etiraf edən mütəxəssislər qurğunun təkmilləşdirilməsi üzərində çalışırlar.

Qurğu insanın sözləri tələffüz etdiyi zaman yaranan beyin dalğalarını skan edən elektroensefaloqramların iş prinsipi əsasında işləyir. Sonrakı mərhələdə beyin fəaliyyəti nəticəsində yaranan dalğaların analizi sayəsində insanın fikirləşdiyi söz və cümlələri qabaqcadan deyə bilir.

Alimlərin sözlərinə görə, qurğu müxtəlif xəstəliklər və ya bədbəxt hadisələr nəticəsində nitq qabiliyyətindən məhrum olmuş insanlara kömək edəcək. Onun təkmilləşdirilmiş versiyası cari ilin sonunda təqdim olunacaq.

## KÖPƏK BALIĞININ HÜCUM ETDİYİ QIZIN HƏYATINI XİLAS ETMƏK MÜMKÜN OLMAYIB

***Avstraliyada köpək balığı gənc qıza hücum edib. Nəticədə qız həyatını itirib.***

Anadolu agentliyi xəbər verir ki, 17 yaşlı gənc qız ağır yaralanaraq xəstəxanaya aparılıb. Lakin həddindən artıq qan itirdiyinə görə onu xilas etmək mümkün olmayıb.

Hadisə nəticəsində Avstraliya polisi hücumun baş verdiyi bölgənin bağlanıldığını qeyd edib.

Avstraliyada 2000-ci ildən bu günə qədər 57 köpəkbalığının hücumu nəticəsində 15 nəfər həyatını itirib.



# YÜZ DƏFƏ EŞİTMƏKDƏNSƏ...

***Taleyini rənglər dünyasına bağlamış istedadlı gənc rəssam Tural Bayramovun fırçasının gücünə azdan-çoxdan bələd olduğumdan yaradıcılığını da maraqla izləyirdim. Amma bu çətin yolda ona dəstək olan valideynlərdən birinin Gəmiçilikdə işlədiyini bu günlərdə təsadüfən öyrəndim. Azərbaycan Dövlət Dəniz Akademiyasının baş mühasibi Mahuzər xanımın gözlərində övladının uğurlarına görə qanuni iftixar hissi keçirən bir ananın nəhayətsiz sevincini gördüm.***

Aprelin 26-dan 28-dək Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Muzey-Sərgi kompleksində gənc rəssamın “Mənim səssiz dünyam” adlı fərdi sərgisi keçirilir. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarovun xüsusi dəstəyi və ADRA Muzey-Sərgi Kompleksinin təşəbbüsü ilə gerçəkləşdirilən sərgiyə maraq böyükdür. Sərgidə rəssamın 100-ə yaxın əl işi nümayiş olunur.




Ömrünün otuzuncu baharını yaşayan Tural Bayramov erkən yaşlarından əlinə fırça götürüb. Rənglər dünyasına vurğunluğu onu Tofiq İsmayılov adına Uşaq Yaradıcılıq Mərkəzinə gətirib. 2002-ci ildə Əzim Əzimzadə adına kollecin Rəngkarlıq fakültəsinə qəbul olunub və buranı bitirdikdən sonra təhsilini Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında davam etdirib.

Tural Bayramov 2010-cu ildən Azərbaycan Rəssamlar İttifaqı Gənc Rəssamlar Birliyinin üzvüdür. 2013-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş “Neft Azərbaycanın sərvətidir” sərgi-müsabiqəsinin, 20 sentyabr 2014-cü il tarixində Neftçilər Gününə və “Əsrin müqaviləsi”nin imzalanmasının 20 illiyinə həsr olunmuş “ART Enerji-20” müsabiqəsinin, 2015-2016-cı illərdə Qəbələ IV Beynəlxalq İncəsənət Sərgisinin, Azərbaycandakı Fransa səfirliyinin təşkil etdiyi Fransanın Milli Müstəqillik Gününə həsr olunmuş sərginin, Rusiya Əməkdaşlığı Təşkilatının Azərbaycandakı nümayəndəliyinin “Sərhədsiz incəsənət” və Belçikada keçirilən “Günəşli Azərbaycana salam” adlı sərgilərin iştirakçısı və laureatı olub.

Gənc rəssam Azərbaycan Dövlət Rəsm Qaleriyası, Azərbaycan Rəssamlar İttifaqı və Xətai Sənət Mərkəzinin birgə təşəbbüsü ilə keçirilən “Vətən buradan başlayır” sərgi müsabiqəsində I yerə layiq görülüb.

Təbiət və gözəllik vurğunu olan rəssamın yaradıcılığında mənzərə və portret janrı üstünlük təşkil edir. “Mərdəkan”, “Bakı bulvarında gəzinti”, “Gədəbəydə əkin sahələri”, “Lənkəranda payız”, “Neftçi düşərgəsi” və sair əsərləri göz oxşadığı qədər də adamı düşündürür.

Tural Bayramovun fərdi sərgisi davam edir. İstedadlı rəssamın rənglər dünyası ilə yaxından tanış olmaq istəyənləri yaradılmış bu imkanı dəyərləndirməyə çağırıram. Hər halda, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək daha yaxşıdır.

*Turab Məmmədov*

# YARIZARAFAT, YARIGERÇƏK

**Həqiqətdən qorxan yalanın arxasında nə vaxtadək gizlənə bilər?**

**İnsanı kimsə yox, ancaq və ancaq inamı aldada bilir.**

**Fikir müxtəlifliyini hər ağızdan bir avazla qarışdırmaq olmaz.**

**Həmişə mərd qalmaq! Niyə də yox?!**

**Adam var, gəlişindən çox, gedişinə sevinirsən.**

**Bəziləri səhərlər söz aparırlar, axşamlar da gətirirlər. Yaman əziyyət çəkirlər.**

**Ağlı çəki vahidi ilə ölçmək mümkün olsaydı, bəzilərinin ağlı qramı keçməzdi.**

**Bəzi ağızları açmağa heç “Sim-sim”in də gücü çatmaz.**

**Yalan çoxaldıqca, həqiqətin nəfəsi daralır.**

**Özünü kolxoz sədri kimi aparmayanda, bir şey aparmaq olmur?**

**Dürüstlük mənə nə qazandırdı? Hələ də bu suala cavab tapa bilməmişəm.**

**Adın gələndə üzlərə xoş təbəssüm qonursa, xoşbəxt adamsan.**

**Deyirəm ünsiyyətdən qaçdığım adamlar birdən başlayarlar düz danışmağa, xəbərim olmaz. Ola bilməz?**

**Əksər natəmizliklər bəzilərinin qəlbinin natəmizliyindən doğur.**

**Fikirləşməyəndə, ağıl da bir şeyə yaramaz.**

**Adətən işi olmayanlar özlərini daha çox “işə salırlar”.**

**Səviyyəsi yüksək olmayanı boyumuzdan yuxarı qaldıranda, könlündən boynumuzda oturmaq keçər.**

**İdarəetmənin nə qədər çətin olduğunu ərlərini idarə edən qadınlardan yaxşı bilən yoxdur.**

**Əvvəlki vaxtlar olsaydı, pulsuz heş olmasa Sibiri görmüşdüm.**

**Bir çoxları hər gün əməlləri ilə sübut etməyə çalışırlar ki, ağıl o qədər də vacib deyil.**

**Gündə yalan danışmayanlar indi az qala dürüst adam sayıla.**

**Qiymətlər artdıqca, adama atanlar da artır.**

**Həyat, insan dünyadan köçəndə yox, düşünməkdən qalanda bitir.**

**Bütün pul qazananlar sevdikləri işlə məşğul olduqlarını düşünürlər.**

**Ağıllı bir şey eşitməyəcəyiniz adamdan uzaq durun. Təkcə ona görə yox ki, ağıllı bir şey eşitməyəcəksiniz.**

**Heç nəyə yaramayanlar ən çox yaltaqlığa yarıyırlar.**

**Əvvəllər özündən üç deyənlər indi on üç deyirlər.**

**Adamlar adamlıqdan uzağı nə qədər uzaqlaşa bilərlər?**

**Bəziləri ən kələ-kötür yalanı da elə rahat danışırlar ki...**

**Nədənsə məni həyatda ən çox hərifə oxşadıblar.**

**Adama uzağı nə boyda şər atmaq olar?**

**Şər atmasan, xeyir gəlmir?**

**Nə vaxtsa, tülkünün sifətindən şirlik yağıb?**

**Hətta şaxtalı günlərdə də alnınız açıq olsun.**

**Ümid azalanda yaman günün ömrü uzanır.**

**Gərək ipimi dəyişəm. Yoxsa üstünə nə gəldi, yığırlar.**

**Kiminsə bir yalanının qabağına iki yalan çıxarmaq lazım deyil.**

**Bəzilərinin ömrünün yarısı günah işlətməyə, yarısı da həmin günahları başqalarının boynuna yıxmağa gedir.**

**Birinin sözü o birinin boğazından keçirsə, bu o demək deyil ki, ona ancaq söz yedizdirilməlidir.**

**Vəzifəyə görə adamı pensiyaya kimi, pula görə isə həmişə satmaq olar.**

**Mən nə qədər istəyirsən, gözləyə bilərəm. Amma, ömür gözləmir.**

**Heç nə bilməyən adam da qanımızı qaraltmağın min yolunu bilir.**

**Hər pis əməlinə görə, yiyəsinin boyu yerə girsəydi, indi yer üzündəki adamları barmaqla saymaq olardı.**

**Başına iş gələnlərin hamısı özlərini kişi sayır. Niyə?**

**Deyəsən mənə təcili həqiqəti danışmağı tərgitmək lazımdır.**

**Vaxtında oyanmağı bacarırsansa, yatmağın da xeyri çoxdur.**

**Həyat həmişə şirindir. Sadəcə, yaşlaşanda başa düşürük.**

**“Kitayski” şeylərin ən yaxşısı, “kitayski” xarakterdir.**

**Nəvə daha şirindir, ay balalar!**

**Başdan başqa, boş olan hər şey sahibini narahat edir.**

**Bəzi adamların “etibar”ını görəndən sonra, çoxu it saxlamağa üstünlük verir.**

**Daha münasib yerdə olduğu üçün ən çox qulağımı kəsmək istəyirlər?**

**Heç bir dildə anlamayanın neçə dildə danışmağından nə fayda?**

**Bəzi adamların ağzını açmaq lazım deyil.**

**Sözü ağızda bişirmək lazımdır, çürütmək yox.**

**İndiki gənclərin çoxu yarın boğçasına girir.**

**Adətən, adamın ən çox ağlını oğurlamağa çalışırlar.**

***Rasif TAHİROV***



## “BAKI-2017”NİN AÇILIŞ VƏ BAĞLANIŞ GÜNÜ TAMAŞAÇILAR “KOROĞLU” METRO STANSİYASINDAN PULSUZ İSTİFADƏ EDƏCƏKLƏR

***“Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış günü Bakı Olimpiya Stadionuna gələn tamaşaçılar mərasim bitdikdən sonra “Koroğlu” metro stansiyasına pulsuz daxil olacaqlar.***

“Bakı Metropoliteni” QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib ki, IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış günü Bakı Olimpiya Stadionundan çıxan tamaşaçılar yaradılmış koridor vasitəsilə stansiyaya yönələcəklər. Bu mərasimi izləməyə gələn tamaşaçılar üçün tətbiq edilən xüsusi proqramdır: “İnsanların rahatlığı üçün tətbiq edilən bu proqram həm də təhlükəsizlik baxımından əlverişlidir. Tamaşaçıların təhlükəsizliyi üçün koridora kənardan heç bir şəxs buraxılmayacaq. Stadiona daxil olarkən insanlar yoxlanıldığı üçün stansiyaya daxil olduqda təkrar yoxlamağa ehtiyac yaranmayacaq”, - deyə N.Paşayev vurğulayıb.

# 34 ÖLKƏDƏN 999 MEDİA NÜMAYƏNDƏSİ MÜRACİƏT EDİB

***“Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarını işıqlandırmaq üçün 34 ölkədən 999 media nümayəndəsi müraciət edib. Media nümayəndələrinin qeydiyyatı prosesinə yanvarın 16-dan start verilib. Əvvəlcədən martın 31-i sonuncu qeydiyyat günü kimi nəzərdə tutulsa da, sonradan yerli və xarici media nümayəndələrinin müraciəti nəzərə alınaraq bu müddət aprelin 9-dək uzadılmışdı.***



Bu sözləri “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının media əməliyyatları şöbəsinin rəhbəri Kamran Talıbov AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

K.Talıbov bildirib ki, müraciətlərin 252-si beynəlxalq, 747-si isə yerli mətbuat orqanları tərəfindən qeydə alınıb. Bunlardan 673-ü yazılı mətbuat, 204-ü fotomüxbir, 122-si isə rəsmi yayım hüququ olmayan televiziya kanallarının operatorlarıdır. Müraciət edənlər arasında Türkiyə, Səudiyyə Ərəbistanı, Əlcəzair, İran və Pakistandan olan media nümayəndələri üstünlük təşkil edirlər. IV İslam Həmrəyliyi Oyunlarını işıqlandırmaq üçün Hollandiya, Polşa, ABŞ, Almaniya, Böyük Britaniya, Rusiya və Fransadan da müraciətlər daxil olub.

“Xarici media nümayəndələrinin müraciətlərinə baxıldıqdan sonra onların ölkəmizə gəlməsi üçün həmin şəxslərə poçt vasitəsilə ilkin akkreditasiya kartı göndərilir. Ölkəmizə gələndə aeroportda kart təsdiqləndikdən sonra akkreditasiya ilə idman arenalarına sərbəst girmək mümkün olur. Xarici media nümayəndələrinin qalma xərcləri onların özləri tərəfindən ödənilir. Ancaq “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları həmin media nümayəndələrinə əməkdaşlıq etdiyi otelləri endirimli qiymətlərlə təklif edir”, - deyə Kamran Talıbov əlavə edib.

“Bakı-2017”dən əvvəl yerli və xarici mətbuat nümayəndələri üçün brifinqlərin təşkil olunacağını bildirən Kamran Talıbov deyib: “Artıq yerli media nümayəndələrinin müraciətlərinə cavabların verilməsinə başlanıb. Həmin cavabda akkreditasiya kartının haradan götürülməsi, Media Mərkəzinin yeri haqqında ətraflı məlumat verilir. İdman obyektlərində media mərkəzləri ilə yanaşı, bir əsas Media Mərkəzi də fəaliyyət göstərəcək ki, burada mətbuat konfransları, görüşlər və brifinqlər təşkil olunacaq”

## “2017” NÖMRƏSİNİ YIĞMAQLA IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI HAQQINDA ƏTRAFLI MƏLUMAT ƏLDƏ ETMƏK MÜMKÜNDÜR

BAKU 2017 4th Islamic Solidarity Games | nar | 2017

***Aprelin 21-də “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının Tamaşaçı Məlumat Mərkəzi açılıb. Tamaşaçı Məlumat Mərkəzinə “2017” nömrəsini yığmaqla ödənişsiz zəng etmək olar. Mərkəz tamaşaçıları Oyunların keçirildiyi məkanlar, yarış cədvəli, biletlər (qiymətlər, biletlərin alınması, bilet satışı məntəqələri və onların iş saatı), yarış məkanları üçün nəzərdə tutulan nəqliyyat imkanları barədə ətraflı məlumatlandıracaq.***

Oyunların rəsmi tərəfdaşı olan “Nar” şirkəti tərəfindən təmin ediləcək Tamaşaçı Məlumat Mərkəzi həftənin 7 günü saat 10:00-dan 18:00-dək (Bakı vaxtı ilə) Azərbaycan və ingilis dillərində fəaliyyət göstərəcək. Məlumat almaq istəyən əcnəbi qonaqlar +994 77 2017 000 nömrəsinə zəng vura bilərlər. Bu halda zənglər beynəlxalq zəng tarifləri üzrə hesablanacaq.

Tamaşaçı Məlumat Mərkəzinə zəng edən hər bir kəsi “Bakı-2017”nin ulduz səfirləri, “Bu şəhərdə”nin aktyorları Rafael İsgəndərov və Coşqun Rəhimov salamlayacaq.

IV İslam Həmrəyliyi Oyunlarında 4 qitədən 57 ölkədən idmançılar 20 idman növü üzrə, həmçinin futbol, atletika, gimnastika, güləş və boks daxil olmaqla, 270 dəst medal uğrunda mübarizə aparacaqlar. Mayın 12-də Bakı Olimpiya Stadionunda keçiriləcək rəsmi açılış mərasimindən 4 gün əvvəl futbol, həndbol və voleybol yarışlarına start veriləcək.

Bu möhtəşəm idman tədbirinə qoşulmaq istəyən hər bir şəxs “Bakı-2017”nin rəsmi internet səhifəsi - www.baku2017.com/tickets vasitəsilə və ya Bakının müxtəlif yerlərində, o cümlədən “Park Bulvar”, “Gənclik Mall” və “28 Mall” alış-veriş mərkəzlərində və 5 “ASAN Xidmət” mərkəzində yerləşən 12 bilet satışı məntəqəsindən bilet əldə etməklə, öz arzusunu reallaşdıra bilər. Bundan əlavə, Oyunlar zamanı 17 yarış məkanında bilet satışı kassaları fəaliyyət göstərəcək.



## KARATEÇİMİZ FƏXRİ KÜRSÜNÜN ƏN YÜKSƏK PİLLƏSİNƏ QALXIB

***“Qəbələ” idman klubunun karateçisi Rafael Ağayev növbəti uğurunu qazanıb.***

Dəfələrlə dünya və Avropa çempionu olan idmançımız bu dəfə Mərakeşin paytaxtı Rabatda fərqlənib. O, 34 ölkədən 384 idmançının qatıldığı karate üzrə Rabat Premyer Liqasının qalibi olub.

Yarışda 75 kiloqram çəki dərəcəsində çıxış edən Rafael Ağayev bütün rəqiblərini məğlub edib. Bununla da karateçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## TRİATLONÇUMUZ AÇIQ AFRİKA KUBOKU YARIŞLARINDA QIZIL MEDAL QAZANIB



***Azərbaycan triatlon yığmasının üzvü Rostislav Pevtsov Mərakeşin Rabat şəhərində təşkil olunan açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb.***

Azərbaycan Triatlon Federasiyasından bildiriblər ki, təmsilçimiz 44 idmançının mübarizə apardığı yarışda 57 dəqiqə 28 saniyə nəticə göstərərək Afrika kubokunun qalibi olub. R.Pevtsov yarış zamanı ona ən yaxın olan fransalı Maksim Hüber-Müsbrügeri 1 saniyə qabaqlayıb.

Qadınların mübarizəsində isə komandamızın üzvü Darina Moskalenko 1 saat 6 dəqiqə 53 saniyəlik nəticə ilə altıncı olub.

Azərbaycan komandası yarışda baş məşqçi Sergey Yatsenkonun rəhbərliyi ilə təmsil olunub.

Qeyd edək ki, R.Pevtsov İspaniyanın Las-Palmas şəhərində keçirilən Avropa kuboku yarışında da birinci yeri tutub.




## 100 QOL VURAN İLK FUTBOLÇU KİMİ ADINI TARİXƏ YAZDIRIB

***Futbol üzrə Portuqaliya millisinin və “Real Madrid” klubunun şərəfini qoruyan Kriştiano Ronaldo UEFA Çempionlar Liqasında 100 qol vuran ilk futbolçu olub.***



K.Ronaldo UEFA Çempionlar Liqasının dörddəbir final mərhələsində “Bavariya” ilə cavab oyununda het-trik edərək 100 qol vuran ilk futbolçu kimi adını tarixə yazdırıb.

O, bu qollardan 18-ni “Mançester Yunayted”in, qalanını isə “Real Madrid”in heyətində vurub.

K.Ronaldonun bu göstərici üzrə ən yaxın izləyicisi Lionel Messidir. O, Çempionlar Liqasında 114 oyuna 94 qol vurmağı bacarıb. Real Madridin əfsanələrindən olan və iki il əvvəl futbolla vidalaşan Raul Qonzales isə 142 oyunda 71 dəfə fərqlənərək ilk üçlükdə yer alıb.

Qeyd edək ki, portuqaliyalı ulduz bundan əvvəl UEFA Çempionlar Liqasının dörddəbir final mərhələsində “Bavariya” ilə keçirilən ilk qarşılaşmada “dubl” edərək Avrokuboklarda 100 qol vuran ilk futbolçu olub.




## 482 MEDAL QAZANIBLAR

***“Neftçi İdman Klubu” İctimai Birliyi respublikamızın öncül idman qurumlarından biridir. Klubun idmançıları qazandıqları və davam etdirməkdə olduqları böyük uğurlarla bunu sübut edir.***

“Neftçi İdman Klubu”nun atletləri ilin ilk üç ayı ərzində ölkədaxili və beynəlxalq səviyyəli yarışlarda əzmlə mübarizə apararaq 166-sı qızıl, 135-i gümüş və 181-i bürünc olmaqla, ümumilikdə 482 medala sahib olublar.

Təmsilçilərdən dünya çempionatında 9 (6 gümüş, 3 bürünc), Avropa yarışlarında 9 (5 qızıl, 3 gümüş, 1 bürünc), beynəlxalq turnirlərdə isə 40 medal (7 qızıl, 8 gümüş, 25 bürünc) qazanıblar. Respublika yarışlarında 199 medala (71 qızıl, 60 gümüş, 68 bürünc) yiyələnən klubun yetirmələri, paytaxt yarışlarında 141 (44 qızıl, 39 gümüş, 58 bürünc), digər yarışlarda isə 84 dəfə (39 qızıl, 19 gümüş, 26 bürünc) fəxri kürsüdə yer alıblar.

## ALLAH RƏHMƏT ELƏSİN

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Dəniz Nəqliyyatı Donanmasının rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi baş mühasib İltifat Babayevə, qardaşı

**Bahadır Ata olu Babayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin İstehsalat Xidmətləri İdarəsinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Dəniz Nəqliyyatı Donanmasının baş mühasibi İltifat Babayevə, qardaşı

**Bahadır Ata olu Babayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1193